




# Davamlı inkişaf və genişmiqyaslı quruculuq

## Abşeronda ilin birinci yarısı müsbət göstəricilərlə başa çatıb

Azərbaycan 2015-2016-cı illərdə özünü göstərən iqtisadi çətinlikləri artıq geridə qoyub. Bunun da əsas səbəbi ölkədə ötən ilin əvvəllərindən başlayaraq həyata keçirilən uğurlu islahatlardır. O zaman qarşıda duran hədəflər qeyri-neft istehsalının stimullaşdırılması və ölkənin ixrac imkanlarının artırılması idi. Artıq bu ilin ilk 6 ayında qeyri-neft iqtisadiyyatında əldə olunan artım, valyuta ehtiyatlarının çoxalması aparılan islahatların uğurla reallaşmasından xəbər verir.

Reallıq ondan ibarətdir ki, respublikamızda iqtisadiyyatın davamlı və rəqabətqabiliyyətli inkişafı sahəsində uzunmüddətli və sistemli fəaliyyət həyata keçirilir. Aparılan iqtisadi islahatlar və iqtisadiyyatın diversifikasiyası siyasəti nəticəsində qısa müddətdə bu sahədə mühüm nailiyyətlər əldə olunub, qeyri-neft sektorunun ümumi daxili məhsulda xüsusi çəkisi artıb, ixrac potensialı yüksək olan rəqabətqabiliyyətli malların istehsalı genişlənib. Beləliklə, yeni islahatlar kursu inkişafın davamlılığını təmin edib.



Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin iyulun 12-də keçirilən iclasında ölkədə birinci yarımillikdə bütün sahələrdə görülən işlərə nəzər salındı, qarşıda duran vəzifələr müəyyən edildi. Ölkə başçısının qeyd etdiyi kimi, Azərbaycan 2017-ci ilin birinci yarısında uğurla inkişaf edib, qarşıda duran bütün vəzifələr icra olunub, ölkəmiz xeyli güclənib və beynəlxalq əlaqələrimiz daha da dərinləşib.

Təbii ki, əldə olunan müsbət iqtisadi göstəricilərdə Azərbaycanın rayonlarının da öz payı var. Artıq neçə illərdir ki, dövlət büdcəsindən dotasiya almayan, daxili imkanlar hesabına yerli büdcəsini formalaşdıran Abşeron rayonunun da sosial-iqtisadi inkişaf göstəriciləri təqdirəlayiqdir. Dünən Xırdalan şəhərindəki Heydər Əliyev Mərkəzində Abşeron Rayon İcra Hakimiyyəti rəhbərliyinin, yerli idarə və təşkilatların nümayəndələrinin iştirakı ilə keçirilən yığıncaq da Nazirlər Kabinetinin 2017-ci ilin birinci yarısı üzrə sosial-iqtisadi inkişafın yekunlarına həsr olunmuş iclasından irəli gələn məsələlərə və qarşıda duran vəzifələrə həsr olunmuşdu.

Tədbiri giriş sözü ilə açan Abşeron Rayon İcra Hakimiyyətinin başçısı İradə Gülməmmədova bildirdi ki, Prezident İlham Əliyevin uğurla reallaşdırdığı inkişaf kursuna uyğun olaraq ölkədə həyata keçirilən yeni iqtisadi islahatlar artıq bəhrəsini verməkdədir. Belə islahatlar və iqtisadiyyatın diversifikasiyası siyasəti nəticəsində qısa müddətdə bu sahədə mühüm nailiyyətlər əldə olunub, qeyri-neft sektorunun ümumi daxili məhsulda xüsusi çəkisi artıb, ixrac potensialı yüksək olan rəqabətqabiliyyətli malların istehsalı genişlənib.

İradə Gülməmmədovanın sözlərinə görə, ötən dövrlərdə olduğu kimi, 2017-ci ilin ilk yarısında da Abşeron rayonunun sosial-iqtisadi həyatında inkişaf dinamikası qorunub saxlanılıb və bir sıra sahələrdə müsbət göstəricilər əldə olunub. Hesabat dövründə rayonda abadlıq-quruculuq, əhalinin elektrik enerjisi, içməli su, təbii qazla təchizatı, yol infrastrukturunun yaxşılaşdırılması istiqamətində işlər davam etdirilib.

### Abadlıq və quruculuq işləri bütün yaşayış məntəqələrini əhatə edir

Daha sonra Abşeron Rayon İcra Hakimiyyəti başçısının müavini İlham Quluyev ilin birinci yarısının yekunları ilə bağlı geniş məruzə ilə çıxış etdi. Öncə rayon üzrə görülmüş abadlıq-quruculuq işlərindən söz açan natiq bildirdi ki, 2017-ci ilin ötən dövrü ərzində rayonun daxili imkanları hesabına Xırdalan şəhərinin Şəhriyar, Masazır kəndinin Hüseyn Arif, İsmət Qayıbov, Mirvari Dilbazi, Mehdi Hüseyn, Digah qəsəbəsinin Xaqani, Xətai, Bakıxanov, Hökməli qəsəbəsinin Əlağa Vahid, Qobu qəsəbəsinin Səməd Vurğun, Novxanı kəndinin Salatın Əsgərova, Saray qəsəbəsinin Hacıbaba Səmədov və Azadlıq, Aşağı Güzdək qəsəbəsinin Həzi Cavadov, Məmmədli kəndinin Nəsirəddin Tusi, Molla Pənah Vaqif küçələrində abadlaşdırma işləri görülüb, Mehdiabad qəsəbəsində park yenidən qurularaq istifadəyə verilibdir. Məmmədli kəndində Böyük Vətən müharibəsi iştirakçılarının xatirəsinə salınmış parkın yenidən qurulması işlərində son tamamlama işləri görülməkdədir. Xırdalan şəhərinin Qalubiyyə küçəsində baxımsız qalmış ərazi abadlaşdırılaraq park salınıb. Eyni zamanda, şəhərin çoxmənzilli yaşayış binalarının həyətlərində qanunsuz zəbt edilmiş 228 daş və ya metal torla hasarlanmış ərazi sökülərək təmizlənib, 28-ci məhəllədə binaların həyətlərində nümunəvi məhəllə yaradılıb. Həmçinin hesabat dövründə yaşayış binaları arasında mövcud olan 63 daş və ya metal konstruksiyalı qaraj sökülmüş, bu işlər hazırda da davam etdirilir.





Yol infrastrukturunun bərpası və inkişaf etdirilməsi məqsədilə rayonun yaşayış məntəqələrində daxili yolların 16107 kubmetrlik hissəsinə çınqıl tökülərək yayılıb, 60 min kvadratmetr sahə asfaltlanıb, 2510 poqonmetr səki daşı düzülüb, piyada səkilərinə 692 kvadratmetr tamet döşənib. Saray qəsəbəsində Vəli Axundov küçəsinin başlanğıcından yeni qəbiristanlığa gedən 1100 metr uzunluğunda yola, Masazır kəndində Hüseyn Arif küçəsində 500 metr uzunluğunda, Xırdalan şəhərində 5 nömrəli məktəbə gedən 600 metr uzunluğunda yola asfalt örtük çəkilib. Məmmədli kəndində magistral yolun kənarı boyunca qrunt sularının axıdılması üçün 300 mm diametrli polietilen borularla 1000 metr uzunluğunda su ötürücüsünün inşa olunması işləri başa çatdırılıb.

"Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na uyğun olaraq və Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə ayrılmış vəsait hesabına Mehdiabad-Digah-Məmmədli, Mehdiabad-Novxanı və Lökbatan-Qobu yollarının əsaslı yenidən qurulmasında son tamamlama işləri görülməkdədir. Bakı-Quba və Bakı-Şamaxı magistral avtomobil yollarının Abşeron rayonundan keçən hissəsində 5 yerdə yerüstü keçidin inşası davam etdirir.

Azərbaycan Respublikası Prezidentinin tapşırığına uyğun olaraq, çoxmənzilli yaşayış binalarının təmiri ilə bağlı Ceyranbatan qəsəbəsi ərazisində əsaslı təmirə ehtiyacı olan 12 çoxmənzilli yaşayış binası müəyyənləşdirilib ki, artıq onlardan 7 beşmərtəbəli yaşayış binasında təmir işləri tamamilə başa çatdırılıb, digər 5 binanın təmiri işləri isə həyata keçirilməkdədir. Rayonun daxili imkanları hesabına Xırdalan şəhərində 7 binada təmir işləri nəzərdə tutulur. Artıq bununla da bağlı işlərə başlanılıb. 4 saylı Mənzil İstismar Sahəsi tərəfindən daxili imkanlar hesabına Xırdalan şəhəri Heydər Əliyev prospekti 5 ünvanında yerləşən bina təmir edilib.






### Kommunal xidmətlərin keyfiyyəti artırılır

Əhalinin sabit elektrik enerjisi ilə təminatı üçün yaşayış məntəqələrində 14 ədəd yeni transformator quraşdırılıb, 3 ədəd yanmış transformator bərpa edilib, 180 ədəd dayaq və 50130 metr naqil dəyişdirilib, yaşayış məntəqələrində 25 min metr uzunluqda "SİP" kabelləşməsi aparılıb. Qobu qəsəbəsində 110 kilovoltluq, Xırdalan şəhəri və Masazır kəndində isə 35 kilovoltluq yarımstansiyaların tikintisi, şəhər ərazisində 3 yarımstansiyanı birləşdirəcək dairəvi 35 kilovoltluq xəttin çəkilişi başa çatıb, Xırdalan şəhərində əlavə olaraq 1 yeni 35 kilovoltluq yarımstansiyanın tikintisinə başlanılıb.

Eyni zamanda, Xırdalanda 10 kilovoltluq elektrik hava xətlərinin yeraltı kabellərlə əvəz olunması və Hökməli qəsəbəsinin daxili xətt şəbəkəsinin yenidənqurulması işlərinə də başlanılıb. Digah qəsəbəsində elektrik enerjisi verilişinin Binəqədineftdən ayrılaraq Fatmayı yarımstansiyasının üzərinə keçirilməsi nəticəsində qəsəbədə elektrik təchizatı ilə bağlı problemlər aradan qaldırılıb.

2017-ci ilin 6 ayı ərzində rayonun yaşayış məntəqələrində müxtəlif diametrli borularla 1926 p/m uzunluqda yeni içməli su xətləri çəkilib, 1566 p/m uzunluqda korroziyaya uğramış xətt dəyişdirilib, 34 ədəd müxtəlif markalı nasos təmir edilib, eləcə də 3312 p/m uzunluqda kanalizasiya xətləri yenilənib. Daxili imkanlar hesabına Xırdalan şəhərində 28-ci məhəllənin 14 saylı binasının zirzəmisinin çirkab sulardan təmizlənməsi məqsədilə 120 poqonmetr boru yenisi ilə əvəz edilib. Xırdalan şəhərinin Xudu Məmmədov küçəsində fərdi yaşayış evlərini su basması ilə əlaqədar 450 poqonmetr, Masazır kəndinin Cəfər Cabbarlı küçəsində 430 poqonmetr, Hüseyn Arif küçəsində 180 poqonmetr, Saray qəsəbəsinin Cabir Novruz küçəsində 220 poqonmetr, Aşağı Güzdək qəsəbəsindəki yeni yaşayış massivində 170 poqonmetr, Mehdiabad qəsəbəsinin Maqsud Abdullayev küçəsində isə 100 poqonmetr uzunluğunda plastik boru ilə kanalizasiya xətləri çəkilib. "Azərsu" ASC tərəfindən Novxanı kəndində başlanılmış və uzunluğu 13.2 kilometr olan içməli su və 6.6 kilometr uzunluğunda olan magistral kanalizasiya xəttinin çəkilişində son tamamlama işləri görülməkdədir.

İlham Quluyev qeyd etdi ki, uzun müddətdir həllinə çalışdıqları Xırdalan şəhərinin su-kanalizasiya sisteminin yenidən qurulması və genişləndirilməsi layihəsinin icrasına başlanılması rayonun həyatında ən böyük tarixi hadisədir. Dəyəri 75 milyon ABŞ dolları olan bu layihənin icrası ilə 2 il ərzində Xırdalan şəhərinin gələcək perspektivi də nəzərə alınmaqla 168 kilometr uzunluğunda müxtəlif diametrli içməli su xəttinin, 108 kilometr uzunluğunda kanalizasiya xəttinin çəkilişi işləri həyata keçiriləcək.

Eyni zamanda, uzun müddətdir ki, ictimai narahatlıq doğuran məsələlərdən biri də respublika əhalisinin duzla təmin edilməsində böyük rolu olan Masazır kəndi ərazisindəki Duz gölünə çirkab sularının axıdılması idi. Bununla bağlı Nazirlər Kabineti qarşısında qaldırılan məsələlərin nəticəsi kimi yaxın vaxtlarda nasosxana quraşdırılaraq xətt çəkilişi işlərinə başlanılması nəzərdə tutulur ki, bununla da uzun müddətdir davam edən böyük bir problemin aradan qaldırılması təmin ediləcək.

Rayon əhalisinin təbii qazla təchizatı ilə bağlı Xırdalan, Ceyranbatan, Qobu, Hökməli, Masazır, Novxanı və Pirəkəşkül yaşayış məntəqələrində müxtəlif diametrli 1660 poqonmetr uzunluğunda yeni təbii qaz xətləri çəkilmiş, 8 ədəd qaz tənzimləyici şkaf və 6127 ədəd sayğac quraşdırılmışdır.

### 34 şirkət tərəfindən 298 adda məhsul

Hesabat dövründə rayonda sahibkarlığın inkişafı, əhalinin maddi rifahının yaxşılaşdırılması və məşğulluğunun təmin edilməsi, onların sosial problemlərinin həlli məsələləri rayon icra hakimiyyəti başçısı aparatının daim diqqət mərkəzində saxlanılmışdır. 2017-ci ilin ötən müddəti ərzində sahibkarlıq fəaliyyətinin genişləndirilməsinin nəticəsi olaraq rayon ərazisində 2735 yeni iş yeri açılıb.

Hesabat dövründə Sahibkarlığa Kömək Milli Fondu tərəfindən rayon ərazisində fəaliyyət göstərən sahibkarlara 5 milyon manat güzəştli kredit verilib.

Rayonun sahibkarları tərəfindən ixracyönümlü məhsul istehsalına diqqət artıb, rayon ərazisində fəaliyyət göstərən 34 şirkət tərəfindən istehsal olunan 298 adda məhsulun xarici bazarlara çıxarılması üçün "Azexport.az" saytında müvafiq məlumatlar yerləşdirilib.

Ötən illərdə olduğu kimi, 2017-ci ilin 6 ayı ərzində də rayonda heyvandarlıq və bitkiçilik məhsulları istehsalının həcmi xeyli artıb. Hesabat dövründə 664 hektar sahədə tərəvəz əkilib. Son bir neçə gündə aparılan araşdırma zamanı müəyyən olunub ki, rayon ərazisində 362 hektar sahədə 368 istixana mövcuddur və bu sahələrdən 2017-ci ilin 6 ayı ərzində 66 milyon kiloqramadək məhsul əldə edilib. Hazırda rayon ərazisində tərəvəz bitkiləri yetişdirmək üçün 8 sahibkar tərəfindən 43.1 hektar sahədə istixanaların tikintisi həyata keçirilir. Rayonun qəsəbə və kəndlərində əhali və fermer təsərrüfatlarında qaramalın sayı 21771 başa, davarın sayı 108380 başa, quşların sayı isə 1 milyon 139 min başa çatıb. Hesabat dövrü ərzində 1311 ton ət, 16455 ton süd istehsal olunub, yumurta istehsalı 9,3 milyon ədəd artaraq 102 milyon ədəd təşkil edib.

Prezident İlham Əliyev tərəfindən verilmiş tapşırıqlara uyğun olaraq rayonun kənd təsərrüfatı torpaqlarında zeytun və badam bağları sahələrinin genişləndirilməsi istiqamətində işlərə başlanılıb. Hazırda Aşağı Güzdək ərazisində 330 hektar sahədə zeytun əkilməsi ilə bağlı işlər sürətlə davam etdirilir. Artıq 51 hektar ərazidə 21 min ədəd zeytun tingi əkilib. Eyni zamanda, keçmiş 3 saylı zeytun sovxozunun ərazisində yeni badam bağlarının salınması məqsədilə 210 hektar torpaq sahəsi ayrılıb və bunun da artıq 80 hektarı salınıb.

### Yerli gəlirlər 112 faiz yerinə yetirilib

Ölkə Prezidenti İlham Əliyev tərəfindən verilən tapşırıqların əsasını rayon və şəhərlərdə dotasiyalardan asılılığın minimuma endirilməsi təşkil edir. Artıq 6 ildir ki, Abşeron rayonu dotasiya almadan bütün xərclərini yerli daxilolmalar hesabına maliyyələşdirir. Bu il rayonun yerli xərclərindən artıq 23.5 milyon manatın dövlət büdcəsinə ödənilməsi nəzərdə tutulur. Hesabat dövründə Abşeron rayon büdcəsinin yerli gəlirlər proqnozu 4915891 manata qarşı 5500860 manat və ya 112 faiz yerinə yetirilib, nəticədə büdcəyə nəzərdə tutulduğundan 585 min manat əlavə vəsait daxil olub.

2017-ci ilin 6 ayı ərzində rayonun yerli büdcəsinin icrası 6777908 manat proqnoza qarşı 5368956 manat və ya 78 faiz icra olunub.

Dövlət Sosial Müdafiə Fondunun rayon şöbəsində cari ilin 6 ayı ərzində 598 nəfərə pensiya təyinatı olub, pensiyaçıların sayı 20927 nəfərə çatıb, rayon üzrə orta pensiyanın məbləği 198 manat təşkil edib. Mərkəzin 11 nəfər sosial xidmət işçisi tərəfindən 118 nəfər ahıl və tənhaya xidmət göstərilib, 104 nəfər əlil istirahət və müalicə zonalarına göndərilib.

Ötən illərdə olduğu kimi, hesabat dövründə də rayonun şəhid, əlil və imkansız ailələrinə diqqət artırılıb, rayon icra hakimiyyəti başçısı yanında büdcədənkənar inkişaf və bərpa fondundan 93 şəhid ailəsi, əlil və imkansıza 13200 manat yardım göstərilib. Rayonun Məmmədli kəndində Qarabağ əlili, çoxuşaqlı ailəsi olan Mahir Rzayevə 131 kvadratmetr sahəsi olan dördotaqlı ev tikintisinə başlanılıb.

Rayon ərazisində məskunlaşmış 10269 məcburi köçkün ailəsinin qayğıları da diqqət mərkəzində saxlanılır. Məlum olduğu kimi, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva 9 mart 2017-ci il tarixdə qaçqınların və məcburi köçkünlərin problemlərinə həsr edilmiş müşavirə keçirib. Bu müşavirənin nəticəsi kimi Masazır kəndində 214 məcburi köçkün ailəsi üçün 3 yaşayış binasının açılışı olub. Açılış mərasimində Mehriban xanım Əliyeva da iştirak edib. Masazır kəndində daha 3 yaşayış binasının tikintisində son tamamlama işləri həyata keçirilir və yaxın vaxtlarda istifadəyə verilməsi nəzərdə tutulur.

2017-ci ilin 6 ayı ərzində rayonun təhsil, səhiyyə və mədəniyyət müəssisələrinin normal fəaliyyətləri üçün lazımi şəraitin yaradılması, infrastrukturun müasirləşdirilməsi istiqamətində işlər davam etdirilib. Yeni Bakı Yaşayış Kompleksində 120 yerlik uşaq bağçası binasında, Masazır kəndində 2000 şagird yerlik, Mehdiabad qəsəbəsində isə 1200 şagird yerlik məktəb binalarında işlər başa çatmaq üzrədir. Rayonun daxili imkanları hesabına Xırdalan şəhərinin 1 saylı uşaq bağçasının binası cari təmir edilmiş və ətrafı abadlaşdırılmışdır.

Əhalinin səhiyyə xidmətinin yaxşılaşdırılması istiqamətində də müəyyən tədbirlər həyata keçirilib. Prezident İlham Əliyevin müvafiq tapşırığına uyğun olaraq, 2017-ci ilin fevral ayından may ayınadək 152 min 390 nəfər sakin tibbi müayinədən keçirilib. Müayinənin nəticəsi olaraq 2006 nəfər xəstəyə ambulator müalicə təyin edilib, 733 nəfər isə stasionar müayinə və müalicəyə göndərilibdir. 15 mart 2017-ci il tarixdə rayon icra hakimiyyətinin yaxından köməyi ilə rayonda fəaliyyət göstərən idarə və təşkilatların könüllü donorluq aksiyası təşkil olunub və 215 nəfər qanvermə aksiyasında iştirak edib.

Yığıncaqda rayon maliyyə idarəsinin rəisi Faiq Şirəliyev, Xırdalan Enerji Təchizatı və Satışı İdarəsinin rəisi Nemət Qasımov və rayon Su-Kanal İdarəsinin rəisi Qorxmaz Abbasov çıxış edərək fəaliyyət göstərdikləri sahələrdə görülən işlər və qarşıda duran vəzifələr barədə hesabat verdilər.

Yekunda çıxış edən Abşeron RİH başçısı İradə Gülməmmədova qarşıda duran vəzifələrdən danışdı. Qeyd etdi ki, "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda və rayonun daxili imkanları hesabına sənaye, kənd təsərrüfatı sahəsinin inkişafı, yol infrastrukturunun təkmilləşdirilməsi, əhalinin elektrik enerjisi və istiliklə təchizatı, su və kanalizasiya, rabitə xidmətlərinin yaxşılaşdırılması, mədəniyyət, təhsil və səhiyyə müəssisələrinin tikintisi, meliorasiya və irriqasiya tədbirlərinin həyata keçirilməsi istiqamətində mühüm tədbirlər nəzərdə tutulur. Rayonda abadlıq-quruculuq işlərinin davam etdirilməsi, təmirinə başlanılmış çoxmənzilli yaşayış binalarında işlərin keyfiyyətlə başa çatdırılması, sakinlərin işıq, içməli su, təbii qaz, yol və digər problemlərinin həll edilməsi, rayon ərazisində yaşıllıqların qorunub saxlanılması və vaxtında suvarılması, ərazidə sanitar təmizliyin təmin edilməsi, rayonun inzibati ərazisində, eyni zamanda, dövlət fondu torpaqlarında qanunsuz tikintilərin qarşısının alınması qarşıda duran ən mühüm vəzifələrdəndir.

Yığıncaqda əminliklə qeyd olundu ki, Abşeron rayonu üzrə 2017-ci ilin növbəti aylarında da qarşıda duran mühüm tədbirlər vaxtında və keyfiyyətlə yerinə yetiriləcək, rayonun sosial-iqtisadi inkişafı və əhalinin sosial problemlərinin həlli istiqamətində mümkün olan bütün tədbirlər uğurla həyata keçiriləcək.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***